# Tələbələr üçün praktiki seminarlar

GS1 Azərbaycan təşkilatı respublikamızın ali məktəblərində təhsil alan tələbələr üçün vaxtaşırı praktiki seminarlar keçirir. Seminarlarda tələbələrə ştrixkod haqqında geniş məlumatlar verilir. Azərbaycan Dövlət Neft Akademiyasının "İstehsalat proseslərinin avtomatlaşdırılması" fakültə - sinin tələbələri daim bu seminarların iştirakçıları olurlar. Akademiyanın müəllimi Ş.İmanovun təşəbbüsü ilə tələbələr üçün ştrixli kodlaşdırma haqqında təqdimatlar keçirilir.

GS1 Azərbaycanın mütəxəssisləri ştrixkodun ölçüləri, rəngləri, növləri, ştrixkoddan düzgün isti - fadə və s. kimi ən əsas aspektləri izah edirlər. Tələbələrə təşkilatının sərgisində olan yerli istehsal - çıların ştrixkod alınmış məhsullarını nümayiş etdirilir. Standartlara uyğun olmayan ştrixkodlar xüsusilə tələbələrin marağına səbəb olur.

Seminar iştirakçılarına GS1 Azərbaycanın metodik-məlumat materialları təqdim edilir.





